

■ ƏZİZ KƏRİM

## SEVMİRSƏN

Demirəm, uzaqlaş, çəkil yolumdan,
Mən sənə sevməyi öyrədəcəyəm.
Məhəbbət güclüdür gələn ölümdən,
Mən sənə sevməyi öyrədəcəyəm.

Ardımca baxarsan, qanım qaynayar,
Bu donmuş hisslərim qəfil oyanar.
Qəlbim təlaşlanar, ruhum boylanar,
Mən sənə sevməyi öyrədəcəyəm.

Sən də çəkəcəksən sevgi yükünü,
Yan durma, Simurqun yandır tükünü...
Nura qərq edəcəm könül mülkünü,
Mən sənə sevməyi öyrədəcəyəm.

Qəfildən sevməyin çox asan olar,
Sevgidən doğulan pak insan olar.
Sevgiylə Vətən də gülüstan olar,
Mən sənə sevməyi öyrədəcəyəm!

## QADIN

Qadın bir günəşdir bu yer üzünə,
Qadınsız yer üzü kimə gərəkdir?
Sığal verməsə də hərdən özünə,
Onun hər addımı çiçək-çiçəkdir.

Qadın - məhəbbətin uca zirvəsi,
Qadın ürəklərə xəncər də olur.
Qadın - kişilərin səsi, nəğməsi,
Qadın var aslandan betər də olur.

Mələklər qadına baş əyib keçir,
Kişilər başına qızıl tacdır o,
Bir qadın nifrəti min ömür biçir,
Odlu məhəbbətə bil möhtacdır o.

Qadın zərifliyin ilkin ünvanı,
Deyilən hər sözü dərk etsin gərək!
Qadın yaratsa da böyük cahanı,
Pisliyi dünyaya tərgitsin gərək!

## BU SAAT

Yer-göy baş-ayaqdı yer kürəsində
Bir yanda sevincdi, bir yanda kədər.
Təbiət diksinir güllə səsindən,
Hardasa kimisə güllələyirlər.

Bu saat nələr var yer kürəsində,
Hansı otaqdasa boylanır hicran.
Gül yox, ölüm bitir çöldə, çəməndə
Torpaq da çıxıbdır torpaqlığından.

Hələ yer üzündə hökm sürür qış,
Ölüm havasını udur insanlar.
Hələ balasını qucaqlamamış
Bomba qəlpəsini qucaqlayan var.

Kimisə, hardasa boğur ehtiyac,
Döşündən medal yox, daş asılıbdır.
Ekranda alışır hər dağ, hər yamac,
Mənim də köksümə od basılıbdır.

Gəlir ürəyimdən bir səs, bir səda,
Kiminsə arzusu, ümidi yanmış.
Kimsə qələminin sirli ucundan
Doğma vətənimə bəla tuşlamış.

Hünər məqamıdır, qalxın ayağa!
Göstərək yağıya qüdrətimizi.
Qarabağı çapıb, talıyır dığa,
Döyüşə səsləyir o haray bizi.

* * *

Dayanaq qol-qola, çiyin-çiyinə,
Baxmayaq həyata intizar kimi.
Söykənək hörmətlə biri-birinə
Torpağa söykənən palıdlar kimi.

Qaranlıq gəzməyək işıq içində,
İnsanlıq adını daşa vurmayaq.
Deyirəm bir ömrü axı niyə də
Vicdanla, qeyrətlə başa vurmayaq.

## YAŞAYA BİLMİR

Atom bayrağını qaldırıb bəşər
Birisi rahatca yaşaya bilmir.
İnsan silahlarla çoxmu əlləşər?
Torpaqsa bu yükü daşıya bilmir.

Gözümüz kosmosda, Marsda, aydadır,
Torpağa bir kərə yanmırıq hələ.
Ayın toz zərrəsi guya faydadır
Torpağın altını görmürük belə.

Milyon illər ötüb keçsə də bilin
Bir ulduzu yerdə görə bilmərik.
Bircə sözün deyim sizə aqilin
Biz Marsı kotanla sürə bilmərik.

Ağıl da, kamal da bizdədir, bizdə,
Di gəl bir tərəfdə hey küllənirik.
Təmiz qan da axmır bədənimizdə
Şüalarla gizli güllələnirik.

## GƏLMİR

Nənəm niy,ə ay ata,
Daha gəlmir heç bizə.
Dedi corab gətirrəm
Gələn qışı mən sizə.

İndi soyuq olacaq,
Donacaqdır ayağım.
Eyvana necə çıxım,
Yoluna necə baxım.

Necə açım bu sirri,
Həyat özü amansız.
Nənən köçdü, ay qızım,
Məni qoydu anasız.

## NOVRUZ GƏLƏNDƏ

Novruzum, novruzum sən hər gələndə,
Sevincdən hər ürək bir dəniz olur.
Min bəzək vurulur şəhərə, kəndə,
Küçələr səma tək tərtəmiz olur.

Açılan fişənglər yağır üfüqə,
Neçə min arzumu, dağ sevincimi.
Dənizdə qarışıb şəfəq-şəfəqə,
Görünür gözümə bir günəş kimi.

İtir baxışlardan hər duman, hər çən,
Elimə qoşulub gülürəm bu gün.
Oğlumun, qızımın tutub əlindən,
Sənin məclisinə gəlirəm bu gün.

Zərə boyanıbdır evlər, eyvanlar,
Bir azdan tonqallar alovlanacaq.
Düzülər yol boyu alma, heyvalar
Onlara fişənglər işıq salacaq.